# 4. Sakitlikdə düşmənin ifşası, müharibədə qələbənin başlanğıcı

***Milli jurnalistikamızın korifeylərindən biri kimi professor Qulu Məhərrəmli bir səviyyədir, peşəkarlıq etalonudur.***

**Elmira AXUNDOVA, Xalq yazıçısı**

44 günlük müharibə dövründə Azərbaycanın yazarları - jurnalistləri, publisistləri, şair və nasirləri öz sözləri ilə müharibənin iştirakçıları idilər. Savaş vaxtı yazarın öz ordusunun yanında olmağı ona ikiqat güc bəxş edir. Hansısa bir gərginlik anında sənətkarın sözü ata-ana istiliyi qədər döyüşçüyə yaxın olur. Ancaq bir də var savaşa qədərki mərhələ.

İkinci Qarabağ savaşı başlanana qədər Azərbaycan yazarları ədəbi janrların müxtəlif səngərlərində ardıcıl olaraq qətiyyətlə savaş apardılar. Əgər belə demək mümkünsə, Azərbaycan yazarının sözü ordunu döyüşə hazırlamaqda az əhəmiyyət kəsb etmədi. Şübhəsiz, düşmən tərəf də yatmamışdı. Onların da yazarları özlərinin ədalətsiz mövqelərini makiyaj edir, yeni kosmetik görkəmə salır, dünya ictimaiyyətini aldadaraq xalqların müqəddəratını təyin etmək hüququ adı altında əzəli Qarabağ torpaqlarının işğalına bəraət qazandırmağa çalışırdılar. Məsələyə bu yöndən yanaşmaqla yazarlarımızın öz missiyalarını necə yerinə yetirmələrinə Qulu Məhərrəmlinin publisistikası ilə cavab verə bilərik. Ancaq onu da deyim ki, azərbaycanlı olub, erməni mövqeyini gücləndirmək baxımından yazanlar da az deyildi. Belə gözlərini çörək tutmuş vecsizlər nəinki Avropada, xaricdə daldalanaraq anti-Azərbaycan fəaliyyətlərini birləşdirməyə çalışır, Azərbaycanda dağıdıcılıq gücünü səfərbər etmək istəyirdilər, eləcə də Azərbaycanın öz içərisində oturaraq korrupsiyaya rəvac verməklə iqtisadi cəhətdən ölkəni diz çökdürmək, guya obyektiv yazar imici ilə mənəvi cəhətdən xalqı tərki silah etmək istəkləri də açıq-aşkar görünürdü. Amma ictimai mühitə, bütövlükdə düşüncəyə təsir etmək gücündə olan yazarlar var ki, öz dəst-xətləri ilə həm xarici düşməni, həm də sapı özümüzdən olan baltaları iflic vəziyyətinə salır. Bir sözlə, ümumi düşüncəni daha düzgün axardan kənara çıxmağa qoymurdu.

Şübhəsiz, sülh dövründə (yaxud yarımsülh dövründə, daha doğrusu, atəşkəs vaxtında) Qulu Məhərrəmlinin dolğun siyasi şərhlərlə süslənmiş publisistikası sözün həqiqi mənasında düşmənə qarşı çox sərt savaş meydanı açmışdı: *"Ermənistan: həyəcanlar və dəyişikliklər dalğası"* (10 fevral, 1998), *"ANS-çi döyülür... və qalib gəlir"* (14 fevral, 1998), *"Krunk durnalarına Lebed də qoşulur"* (21 fevral, 1998), *"Qarabağ müharibəsi: yeni mərhələ başlanır"* (4 mart, 1998), *"Avropada seperatizm və yaxud Kosova sindromu"* (8-9 mart, 1998), *"Yaddan çıxmaz Qarabağ"* (10 mart, 1998), *"Ermənistan: kim seçilir, kim qalır?"* (15-16 mart, 1998)... bu yazıların başlıqlarından da göründüyü kimi müəllif bütün düşüncə imkanlarını Ermənistanın işğalçılıq siyasətini davam etdirməsini ifşaya yönəldir. İstər-istəməz anoloji təhlillər də apararaq Qarabağ uğrunda Azərbaycanın haqlı savaşına ikili münasibəti də unutmur. Bu münasibətin doğura biləcəyi fəsadları ümumi oxucu kütləsinin diqqətinə yetirir. Doğrudur, Ermənistanda baş verən hadisələr Qarabağ seperatçılarının, qatil liderlərinin təhriki ilə daha da qatılaşır, rənglər tündləşir. İşğalı davam etdirmək siyasəti yeridənlərin Petrosyan xəttinə inkar mövqe tutmaları Azərbaycanda müəyyən ziddiyyətli fikirlərin yaranmasına səbəb olur. Döyüşən publisistikanın nümayəndəsi kimi Qulu Məhərrəmli öz oxucusuna (dinləyicisinə) təlqin edir ki, hətta qatil liderlər hakimiyyətdə nə qədər qalmalarından asılı olmayaraq son nəticədə elə Ermənistan hökuməti tərəfindən ifşa olunacaq və hakimiyyətdən biabırçılıqla gedəcəklər. Qulu Məhərrəmli bu tipli düşüncələri ilə Azərbaycan cəmiyyətini mənəvi cəhətdən səfərbər olmağa çağırır. Yəni, vəziyyətə hazır olmaq... mahiyyət budur. Burada bir yazı var. ANS-çinin döyülməsi haqqında olan yazını nəzərdə tuturam. İlk baxışdan Qarabağ məsələsinə dəxli yoxdur, amma Qulu Məhərrəmli bu yazını da Ermənistan amili ilə başlayır. Dolayısı ilə Qulu Məhərrəmli yerli kiçik padşahlara anladır ki, düşmən qanlı savaşa hazırlaşdığı vaxt ölkənin içərisində *"cəbhə açmaq"* çox təhlükəlidir.

Obrazlı düşüncə müəllifi olaraq Qulu Məhərrəmli siyasi məzmun daşıyan təşkilat və ya şəxs adlarını uğurla yazısının başlığına çıxarır. Krunk durnalarına Lebedin də qoşulması haqqındakı yazı buna ən yaxşı misaldır. *"Krunk"* Qarabağ seperatçılarının təşkilatıdır. Onların məqsədi, məramı aydındır. Rusiyadan onları dəstəkləyən Aleksandr Lebedin soyadı *"Krunk"*la təkcə formal yox, həm də məzmunca bağlılığa işarədir. Müəllif hər bir yazısını, hətta ironik baxımdan olsa da, tərsinə deyimlə olsa belə xüsusi çağırışla bitirir: *"...Xocalı faciəsinin 6-cı ildönümünü qeyd etməyə hazırlaşırıq. Biz həmin günlər göz yaşı tökub ağlayacağıq... Yaman ağlayacağıq!"* (21 fevral, 1998). Buna Q.Məhərrəmlinin zəngin dil ehtiyatı imkan verir. O istənilən vaxt düşüncə imkanlarının dərinliyində olan dil qatlarına enə bilir və oradan özünə, məfkurəsinə uyğun mənaları dartıb üzə çıxarır. Buna deyirlər sözün kökünə getmək. Qulu Məhərrəmli oxucusunu sözün kökünə getməyə təhrik edə bilir.

Qulu Məhərrəmlinin birbaşa Qarabağ mövzusu ilə bağlı publisistik əsərlərini izlədikcə müəllifin öz mövqeyində nə qədər inadlı olduğunu görmək çətin deyil. Elə bil ki, Qarabağ probleminin həlli uzandıqca o, mübarizə əzmini daha böyük ciddi-cəhdlə toparlayır və sözü ilə savaşın ön atəş xəttində dayanmağı özünə daha artıq dərəcədə borc bilir. Hələ 1998-ci ilin 4 mart tarixində beynəlxalq arenaya üz tutaraq *"Qarabağ müharibəsi: yeni mərhələ başlanır"* adlı məqalədə yazırdı: *"Ermənistandakı son olaylar Qarabağ münaqişəsinin həllinə münasibətdə ATƏT-in uğursuz cəhdləri və ən başlıcası – böyük dövlətlərin problemə münasibətdə ortaq fikrə gələ bilməməsi istər-istəməz belə bir sualı meydana çıxarmış olur: biz hara gedirik, Qarabağ münaqişəsinin həlli yolları tükənirmi və bu münaqişənin hərbi yolla həlli tərəfdarlarının sayı çoxalırmı?"*. Şübhəsiz, bu sualda ritorik mahiyyət var. Qulu Məhərrəmli qoyduğu suallarla sanki oxucusunun düşüncəsi üzərində eksperiment aparır. Onların nə dərəcədə yuxulu və ayıq olduğunu bilmək istəyir. Bir az dəqiqləşdirsək, o sanki qara camaatdan ağ camaata qədər hamıya anlatmaq istəyir ki, bizi qabaqda nə gözləyir. Bəli, bizi qabaqda çox şey gözləyir. Mitinqlər dalğası, hakimiyyət ehtirasları, ucuz, populist şüarlar, birinci Qarabağ müharibəsində məğlubiyyətin emblemini daşıyanların xalq çağırışları və nəhayət, qətiyyətlə ictimai-siyasi vəziyyəti sabitləşdirmək meyilləri ilə üzü gələcəyə yeni planlar hazırlığı - bunları da Qulu Məhərrəmlinin publisistikasının maraqlı tərəflərindəndir. O sanki məqalələri ilə psixoloji hazırlıq proqramı verir. Proqram isə həyata keçənəcən xeyli vaxt tələb edir.

Qulu Məhərrəmli Avropada seperatizmi şərh edərkən Kosova sindromunu diqqətə çəkir. Bununla dünyanın güc mərkəzlərini belə bir sual qarşısında qoyur: nə əcəb Kosovo?... Ən başlıcası, bütün bu siyasi-publisistik gedişlərin fonunda Qarabağı unutmur. Yarı ironik şəkildə Qarabağ məsələsinin ATƏT-in qovluqlarında gəzərək Yerevanda, Minskdə, Bakıda, habelə cəbhə xəttində monitorinqlərdə dilə gətirildiyini bildirir. Ayıq oxucu üçün bunun nə demək olduğu məlumdur. Bircə o qalır ki, biz Qulu Məhərrəmliyə mənanı çatdırmağa, sözdən min bir yolla istifadə imkanlarına görə təşəkkür edək. Ermənistanda kimin seçilib, kimin qalacağı (*"Ermənistan: kim seçilir, kim qalır?"*) məsələsinə münasibətə gəldikdə orada kimin önə çıxacağı Qulu Məhərrəmli üçün maraqlı deyil. Amma kimin gəlişindən asılı olaraq Qarabağ məsələsinə münasibət onun üçün xüsusi əhəmiyyət kəsb edir.

MDB yarandığı gündən fərqli münasibətlər ünvanı olub. Həm özünün hadisələrə münasibəti baxımından, həm MDB-nin bir qurum kimi fəaliyyətinə insanlar tərəfindən münasibət baxımından. Onu da demək yerinə düşər ki, Qulu Məhərrəmli beynəlxalq aləmin də MDB-yə münasibətinə aydınlıq gətirir: *"Amerika MDB-ni milli maraqlar zonası sayır"*. Bu əslində doğru qənaətdir. Vaxtı ilə SSRİ-nin çöküşü nəticəsində güc imicini itirən Rusiya çox istəyirdi ki, MDB ilə məlum ərazilərə təsirini saxlaya bilsin. Hətta Azərbaycanda da populist çıxışçılar MDB-ni sovet rejiminin davamı kimi görür və şərh edirdilər. Amma Qulu Məhərrəmli kimi publisistlər bu münasibətə cavab üçün yazır və əsil mahiyyəti də başlığa çıxarır: *"MDB saydığını sayır, amma onu sayan varmı?"*. Az-çox düşünmə imkanı olan hər kəsə bu sərt və aydın başlıq əsil mahiyyəti çatdıra bilir. Təkcə elə bu mahiyyətin şərhində Qulu Məhərrəmli nə qədər dövlətçi adamdır, nə qədər milli mənafe düşüncəsinə malikdir, açıq-aydın görünür. Bax bu yerdə deyirlər, "Əməkdar jurnalist" adı sənə halal olsun. Görünür, elə bu mübarizələrin bəhrəsi olaraq Qulu Məhərrəmlini özünə ustad bildiyi simalar – Şirməmməd Hüseynov, Tofiq Hacıyev, Hacı Hacıyev və qeyriləri yüksək dəyərləndiriblər.

Qulu Məhərrəmli bir dairədə qapanıb qalmır, o həm Rusiyanın öz içərisində, Kremldə dayanıb hadisələri müşahidə edir və həm də oradan üzü Azərbaycana - Qarabağa doğru baxa bilir. *"Rusiya hökümətində istefa dalğası"* yazısında Yeltsin hökümətindəki dəyişikliklər fonunda baş verə biləcək hadisələrə ehtimalları kifayət qədər cəlbedicidir: *"Moskvadakı bu dəyişikliklərin Azərbaycana zərəri yoxdur ki? Şübhəsiz, Rusiyanın yanacaq-energetika kompleksi ilə sıx bağlı olan Çernomırdinlə Azərbaycan hökuməti normal münasibət qura bilmişdi. Amma bu heç də o demək deyil ki, Rusiyanın yeni hökuməti ilə ciddi problemlər ola bilər. Axı Yeltsin özü bəyan etmişdir ki, hökumətin dəyişməsi strateji kursun dəyişməsi və deməli, həm də qonşularla münasibətlərin dəyişməsi demək deyildir"*. (25 mart, 1998). Qulu Məhərrəmlinin bu qeydləri zamanına görə xüsusi əhəmiyyət daşıyır. Ən başlıcası, ölkə içi populist çıxışçıların bəhanələrinə yer qoymur. Ölkə içi vəziyyəti nəzarətdə saxlamaqda siyasi rəhbərliyə dəstəkçi olur.

Daha bir məqalə oxucu diqqətindən kənarda qalmır: *"Ermənistan: ilanın ağı, yoxsa qarası?"* yazısı *"Köçəryan, yoxsa Dəmçiyan?"* sualı ilə başlanır və özünəməxsus ifadə tərzi ilə cavab verir: Bu Hamletsayağı sual deyil. Hətta yazının içərisində zamanla bağlı sürprizlərdən də söhbət açır. Doğrudan da, qatillər istənilən vaxt cəmiyyətin gözünün içinə baxaraq cinayət törədə bilirlər. Köçəryan da belə bir sürprizlə hakimiyyət başına gəldi. Müəllif situasiyanı xarakterizə edərək sözünü belə bitirir: *"Bəli, Ermənistan öz tarixində yeni bir lideri siyasət səhnəsinə çıxarmağa hazırlaşır. Başqa dövlətlərin yedəyində gedən belə ölkələrin liderləri isə tarixə yaxşı heç nə vermir. Bizim üçünsə Ermənistan elə həmin Ermənistandır. Onun liderinin tuluğunda həmişə Azərbaycan üçün zəhər vardır. Bu zəhərin ilanın ağında, yaxud qarasında olmasının heç bir fərqi yoxdur"*. Qulu Məhərəmlinin bu qənaətinin nə qədər doğru olduğunu daha iki onillik sonra hakimiyyətə gəlmiş, özü də Qərbin dəstəyi ilə hakimiyyətə gəlmiş Paşinyanın simasında da görmək olar. Demokratik şüarlarla hakimiyyətə gəlişi yolunda Qarabağ məsələsinə dair parlamentdəki çıxışları ilə obyektiv mövqe sərgiləsə də bu gün kapitulyasiyadan sonra verdiyi vədlərə xilaf çıxır. Bu da ilanın ağı. Daha nə deyəsən...

* * *

Qulu Məhərrəmlinin publisistikasını xüsusi dəyərləndirmək imkanı verən cəhətlərdən biri və bəlkə də əsası onun sözü zamanında deməsidir. Gərək ki, o ifadəni belə işlədirlər: Zamanın sözünü sözün zamanında demək... Bu yazıların hər birində zamana, dövrə aydın münasibət var. Nəbz, cəmiyyətin ürək ritmi bu yazılarda döyüntüləri ilə kifayət qədər eşidilir.

Qulu Məhərrəmlinin siyasi-publisistikasını yaşarlıq səviyyəsinə qaldıran bir keyfiyyət də onun hadisələrə obyektiv münasibətini hər hansı bir siyasi düşərgənin mənafeyinə qurban verməməsi ilə bağlıdır. O, bütün hallarda ölkə içi və ölkə xarici məsələlərə münasibətində obyektiv yanaşma tərzini qoruyub saxlayır. Hansı siyasi düşərgənin hansı tərəfgir nümayəndəsinin nə düşünəcəyi onun üçün maraqlı deyil. O istəyir ki, haqq işi uğrunda savaşını qələmi ilə apardığı xalqı həqiqəti bilsin. Hətta o, ermənilərə də yersiz, ucuz söyüşlərə qonaq etmir. Yüksək elitar mədəniyyət göstərərək sözünü elə ifadə edir ki, düşmən tərəf nəyin həqiqət, nəyin yalan olduğunu dərk edə bilsin.

* * *

Sonuncu cümləni yazanda İkinci Cahan Savaşı ilə bağlı bir məqam da yadıma düşdü. İlya Erenburqun döyüş reportajları çap olunan qəzetə maxorka bükmək qadağan olunmuşdu. Çünki o zamanın döyüşən ordusunda söz bilən əsgərlər deyirdilər ki, İlya Erenburqun yazıları bizimlə birgə vuruşur.

...Deyirəm ki, bəlkə Qulu Məhərrəmlinin bu yazıları kitab halına gətirilməyəydi, ayrı-ayrı qəzetlərin küncündə qalaydı və o vaxtın təbiri ilə desək maxorka büküləydi. Onda nə qədər bizə düşüncə imkanı verən dəyərli xəzinədən məhrum olardıq.

***13.08.2021***